Qış turizmi

# Qubanın ağ... fəsli



Ölkəmizdə turizmin inkişaf etdiyi ərazilərdən biri də şimal bölgəsidir. Hələ keçmiş sovetlər dönəmində bu region turizm ərazisi kimi məşhur idi. Azərbaycanın şimal sərhədinin bir addımlığında məkan qurmuş Qubanın, Qusarın, Nabranın gözəlliklərindən "dadmadan" respublikamızı tərk etmək mümkün deyildi.

Müstəqilliyin bərpasından sonra da regionda yeni sanatoriylar, istirahət mərkəzləri yaradılıb. Bu o deməkdir ki, şimal bölgəsi özünün turizm brendini qoruya bilib. İndi də Azərbaycana gələn turistlər böyük həvəslə Qubanı görməyə can atırlar. Təbiəti bir yana, həyata keçirilən tikinti-quruculuq və abadlıq işləri Qubaya gələn turistlərin sayını artırır.

Qış astanadadır. Payızın yağışını "yola salmamış" bu ərazilərə qar yağıb. Uca Şahdağın zirvəsindən əskik olmayan qar aşağı ərazilərə "köçüb". Bir az erkən olsa da, insanların əhvali-ruhiyyəsini artırıb. Havayı yerə deməyiblər ki, qar bərəkətdir.

Turizm ərazisi kimi Qubaya dövlət tərəfindən də böyük diqqət göstərilir. Rayonda turizmə və turistlərin məmnunluğuna hesablanmış nə varsa, mülkiyyət formasından asılı olmayaraq, hamısı dövlətin birbaşa və ya dolayısı dəstəyi ilə ərsəyə gəlib. Bu hesaba Quba Olimpiya İdman Kompleksi, SPA mərkəzləri, Xınalıq kəndi, qədim xalçaçılıq sənətinin inciləri və onlarla digər ünvanlar rayonun simasına çevrilib. Bu gün Qubada 140-dan çox tarix-memarlıq, o cümlədən 70 təbii təbiət abidəsi var. Təbii fəlakətlər zamanı yaranmış bu abidələr ilin bütün fəsillərində turistlərin maraqla dolandıqları ərazilərdir. "Gəlin qayası", "Qızıl qaya", "Gülcahan daşı", "Xan bulağı", "Daş gəlinlər", "Ağacda ev", "Xaltan suyu" və başqa bu kimi təbiət abidələrinə hər yerdə rast gəlmək mümkün deyil. Qubadakı 60-dan artıq arxeoloji abidənin böyük hissəsi IV-XVII əsrlərə aiddir. Əvvəlki illərdə onların bir çoxunun yolu yaman gündə idi. İndi həmin yollar təmir edilmişdir. Abidələrin ətrafında isə lazım olan infrastruktur yaradılmışdır.

Qubada fəaliyyət göstərən turizm şirkətləri qış mövsümü üçün xüsusi hərəkət cədvəli hazırlayıblar. Rayona sürüşkən dağ yolları üçün nəqliyyat vasitələri gətirilib. Piyada səfərə çıxmaq istəyənlər üçün isə bələdçilər ayrılıb. Onlar əsasən rayon ərazisini yaxşı tanıyan yerlilərdir.

Artıq rayonda xüsusən şənbə və bazar günləri qış turizm həvəskarlarını görmək mümkündür. Düzdür, Bakı-Quba yolunda aparılan təmir işləri bölgəyə gəlmək istəyənlərin sayına təsir edib. Amma bütün hallarda paytaxta yaxınlığı bu yerləri qonaq-qarasız qoymur. Xüsusən Qəçrəş, Afurca, Ləzə, Xanəgah, Alıc Tüləkəran, Gültəpə kəndləri turistdən korluq çəkmir. Hətta qar yağanda həmin kəndlərdə boş ev tapmaq çətin olur. Qubada qış turizm reklam işi də pis təşkil edilməyib. Bu işlə bir neçə təşkilat və sayt məşğuldur. Onlar bukletlər, kitabçalar, tur proqramları, disklər hazırlayırlar. Reklam lövhələrindən də səmərəli istifadə olunur. Soyuq və qarlı gündə harada isti nahar və ya səhər yeməyi verildiyini həmin lövhələrdən öyrənmək mümkündür.

Qubanın yaxınlığındakı Qusar da qışda qonaq-qaralı olur. Şahdağ turizm mərkəzi xizək həvəskarlarının sevimli məkanıdır. Baxmayaraq ki, qış hələ irəlidədir, indidən mərkəzdə yer sifariş verənlərin sayı kifayət qədərdir. Bir də qarşıdan Yeni il gəlir axı.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2022.- 13 dekabr.- S.10.